# HƏSƏN HÜSEYNİ MƏRTƏBƏSİ

*(Həsən Hüseyninin əlli yaşına)*



Hər vaxtın bir tarixçəsi var.

Hər tarixçə də dövrün hadisələrini əks etdirən kiçik qeydlərlə yadda qala bilər.

Böyük şəxsiyyətlər həmişə xalqın içindən çıxıblar və bu şəxsiyyətlər də elə dövrün əsas hadisələri kimi üç-beş kiçik qeydlə tarixin sinəsinə sancılıblar.

2020-ci il gəlişi ilə aləmi bir-birinə qatdı, silkələdi. Bəşəriyyəti, sanki, böyük imtahan sınağına çəkdi. Dünyanı lərzəyə gətirən "koronavirus" deyilən bir pandemiya ucbatından bəşəriyyəti "evdəqal" kompaniyasına qoşulmağa vadar etdi.

Mən də hamı kimi evdə oturub çoxlu kitablar oxudum, filmlər seyr etdim və arxivimlə yenilənmə işləri apardım. Bir sarı vərəq diqqətimi cəlb etdi. Orda cəmi üç cümlə yazılmışdı:

"Həsən Hüseyni ədəbi mühitdə böyük nüfuz sahibidir. Başqalarından fərqli mövqe tutması onun ədəbiyyatla bərabər İslam aləminin incəliklərinə də dərindən bələd olmasıdır. Ulu yaradan ona həm də natiqlik məharəti bəxş edərək öz yüksək mövqeyində mövcudluğunu zinətləndirmişdir".

Bəli, cəmi üç cümlə və bu üç cümlədə, məncə, insanın portreti normal səviyyədə cizgilənmişdir.

Həsən Xalıqverdi oğlu Hüseyni 1970-ci il aprel ayının 25-də rayonun Sobu kəndində təvəllüd edib. Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə iştirak edib və döyüşlərin birində ağır güllə yarası alıb. Uzun müddət yataq xəstəsi olub. Hazırda I qrup Qarabağ Müharibəsi Əlilidir.

Bakı İslam Universitetini bitirib, islamşünasdır.

"Qızıl Qələm", "Xalqın Nüfuzlu Ziyalısı" və "Azərbaycan Bayrağı Mükafatı" fəxri diplomları ilə təltif olunmuşdur.

"Aşıq Dirili Qurbani" məclisinin üzvüdür.

Mütəmadi olaraq dövrü mətbuatda və ədəbi dərgilərdə elmi-fəlsəfi məqalələri ilə çıxışlar edir.

"Parlaq Ulduz", "Xuda Hüseynin aşiqi", "Ya Əli", "Gizli qalmış xəzinə", "Həzrət Əli (ə) müxtəlif baxışlarda", "Sığın Haqq dərgahına", "Bismillah ayəsinin incə görüntüləri və "Bə" hərfinin altında olan nöqtələrin sirri" adlı elmi-tədqiqat əsərlərinin müəllifidir.

Bir ədəbiyyatçı kimi Həsən Hüseyninin "Əhli-beyt aşiqi Aşıq Novrəs İman" məqaləsi diqqətimi çəkmişdi. Hələ heç kim Aşıq Novrəs İman yaradıcılığını belə şahanə təhlil etməmişdi. Təkcə bu məqalə mənim gözümdə Həsən Hüseynini dövrümüzün bütün tənqidçilərindən yüksəkliyə qaldırdı. Onun yaradıcılığı ilə maraqlandım. Qarşıma nələr çıxmadı? Eşq günəşi Şəms Təbrizi, Mövlanə Cəlaləddin Rumi, Şeyx Fəzlullah Nəimi, İmadəddin Nəsimi, Fəzilətlər sahibi, İlahi eşq sultanı Məhəmməd Füzuli, Şah İsmayıl Xətai, Seyid Əzim Şirvani, Qumri Dərbəndi, Seyid Məhəmməd Şəhriyar və digər tarixi şəxsiyyətlər, onların yaradıcılıqları ilə bağlı elə məqamları incələmiş, ortaya çıxartmışdır ki, indiyə kimi heç kim bu mövzulara toxunmayıb.

İslam tarixini və dinini mükəmməl qavrayan Həsən Hüseyni sözündə və əməlində əsl islamşünasdır. Daima Tanrı dərgahına sığınmış, hansı şəraitdə və həyatın, təbiətin keçilməz mürəkkəb maneələri ilə üzləşməsinə baxmayaraq əqidəsinə sadiq qalmış və bu müqəddəs yolu davam etdirməkdədir.

Gözəl nitq qabiliyyəti var. Tanrı bu, çox müqəddəs və ülvi xoşbəxtliyi ondan əsirgəməmişdir. Bütün məclislərdə yaşından, mövqeyindən, vəzifəsindən asılı olmayaraq hamını heyran edə bilir. Zəngin biliyini çatdırmaqda səlis nitq qabiliyyəti daima onun köməyindədir.

Daima Tanrı dərgahına sığınan Həsən Hüseynini Tanrı dərgahında hansı mərtəbədə olduğunu müəyyənləşdirmək çətin deyil - müəyyən seçilmişlər kimi onun da öz mərtəbəsi var. Çünki bu gün ağlı, savadı və istedadı ilə istər ədəbiyyat, istərsə də ilahiyyat sahəsində yorulmadan, davamlı olaraq fəaliyyət göstərən, seçilmişlərin həyat və yaradıcılığını araşdıran, gizlində qalan məqamlara işıq salan və layiqli qiymətlərini almaları üçün üzə çıxardan, eyni zamanda zəngin biliyini ictimaiyyətdən əsirgəməyən və el yolunda xərcləyən Həsən Hüseyninin hər iki sahədə mərtəbəsi yüksəkdir, layiqli yerdədir.

Böyük hörmət və ehtirama layiq Həsən Hüseynini yubiley - əlli yaşı ərəfəsində səmimi qəlbdən təbrik edir, möhkəm can sağlığı, uzun ömür və yaradıcılığında yeni-yeni tapıntılar arzulayırıq. İnanırıq ki, onun qarşısına çıxan hər bir tapıntı həm ona, həm də cəmiyyətə uğurlu bir tədqiqat əsəri olacaqdır.

***Əli Bəy Azəri***

*Azərbaycan Yazıçılar Birliyinin üzvü,*
*"Xəzan" ədəbi-bədii jurnalının baş redaktoru*